

## LEYLA ƏSƏDULLAYEVA

***Leyla Mövludşah qızı Əsədullayeva 13 may 1993-cü ildə Bakı şəhərində anadan olub. 2 nömrəli Bakı Baza-Tibb Kollecini bitirib. Bakı Slavyan Universiteti Yaradıcılıq fakültəsinin məzunudur. Hazırda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Televiziya və Kino Rejissorluğu fakültəsində təhsil alır. Beş ildən çoxdur ki, bədii yaradıcılıqla məşğuldur. "Qızıl Qələm" media mükafatı laureatıdır. Şeirləri "Ulduz" və "Azərbaycan" jurnallarında, "Kaspi", "Oxu Məni" qəzetlərində çap olunub. 2016-cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. 2017-ci ildə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən ən yaxşı gənc yazar kimi Prezident Təqaüdünə layiq görülmüşdür.***

### *GÜZGÜ NAĞILIM*

Nağıla bənzəyir həyatım mənim,
Sən nağıl ömrümün qəhrəmanısan.
Nağılda harada axtarım səni,
Əvvəldə, ortada, yoxsa sondasan?

Biri var, biri yox, biri də heç yox,
Yoxda var, varda yox - hansı gözəldir?
Vüsalın qarşıma indi çıxsa da,
Həsrətin milyon il səndən əzəldir.

Elə sevgi var ki, şirin nağıldır,
Ürəkdə ürəklə döyünür vurur.
Elə sevgi var ki, acı nağıldır,
Kürəkdə ox olur, batır qanayır.

Şirindi, şit deyil, bir az da duzlu.
Bir azca məzəli, sözlü nağılım.
Hisslərlə yoğrulub, ürəkdə bişən,
Ay mənim həyatda güzgü nağılım...

### *GECƏ DÜŞÜNCƏSİ*

Düşünürsən gecələr,
Soyuğu,
Yalnızlığı.
Pəncərədən içəri
Dolur gecə sazağı.

Kimsə yoxdur otaqda,
Yalnızlıq içindəsən.
Narahat çarpayıda
Qıvrılır sakit bədən.

Dəli bir düşüncə var
Ürəyinin içində.
İllərdi gələn nəfəs
Dolaşırmı köksündə?

Axı, bu itən nəfəs
Hara gedir görəsən?
Gecə pozur sükütu,
O, danışır, deyəsən:
"Bax səmaya", dolanır,
Yerdə, göydə fırlanır.
Ürək durmur yerində,
O dayanmır, çırpınır.

Gözlər dikilib yola,
Kimi isə gözləyir.
Yola baxırsa gözlər,
Bəs niyə kədərlidir?

Yetdi zaman bu anda,
Qaraltı var uzaqda.
Bu son nəfəs, bu son söz:
"Nə gördüm ki, həyatda?"

### *SƏNSİZLİYİN DADI...*

Sənsizliyin dadı...
Yoxluqdur.
Dözülməz bir ağrıdır o.
İşıq yoxdur, qaranlıqdır.
Küləklər də sazaqlıdır.
Çox acıdır...
Sənsizliyin dadı...
Əlacsız bir dərd kimidir,
Daldalanmış ər kimidir,
Tapdalanmış mərd kimidir,
Sənsizliyin dadı..

Bütün naləm, ah-fəryadım
Dərdlə açılan sabahım.
Bu dərdi mən necə yazım?
Sənsən ən böyük günahım...